# ƏDƏBİ HƏYAT



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# BU KÖÇ O KÖÇDƏN DEYİLDİ...

## (”Dünya, səndən kimlər keçdi” silsiləsindən)

Doqquz ilə yaxındı ki, Qiyas Həmidi görmürəm. Əvvəllər də az-az görürdüm. Ailəsi ilə birgə Sumqayıtda yaşayırdı. Yolum Sumqayıta düşəndə zəngləşirdik, oturub bir guşədə çay içir, dərdləşirdik. Sonralar eşitdim ki, maddi güzəran qayğılarına görə Kazandadır və Kazandan yolu bu tərəfə düşəndə bir-iki dəfə görüşdük. Danışırdı ki, Kazanda olanda Tatarıstanın məşhur yazıçı və şairləri ilə qaynayıb-qarışıb, tatar dilini də öyrənib, orada Azərbaycan ədəbiyyatını layiqincə təmsil edir. Mənə dedi ki, indi bizim şairlərin şeirlərindən seçirəm, tərcümə eləyib Kazanda kitab halında nəşr etdirəcəyəm. Bu söhbət 2008-ci ilin bir payız günündə olmuşdu. Amma həmin ilin dekabr ayında eşitdim ki, Qiyas Həmid Kazanda vəfat edib. Bir şeirini xatırladım:

**Sirrini bilənə yox,**
**Arxamca gələnə yox,**
**Dərdini bölənə yox,**
**Didənə qoşun məni.**
**Hər daş üstə bitməz ot,**
**Qəlbdə bitən-itməz ot,**
**Ürəyini yanar od**
**Edənə qoşun məni.**
**Daha saçları qaram,**
**Sağalmaz bitən yaram,**
**Bu ağrıdan doymaram, -**
**Dadana qoşun məni.**
**Ömür-gün heçdən deyil,**
**Qocalıq yaşnan deyil, -**
**Gedənə qoşun məni!**

Qiyas Həmid (Qiyas Abdulla oğlu Həmidov) 1954-cü ildə Masallı rayonunun Böyük Xocavar kəndində anadan olmuşdu, Mədəniyyət və İncəsənət Universitetinin Mədəni Maarif fakültəsini bitirmişdi, taleyini Sumqayıt şəhərinə bağlamışdı. Jurnalistlik fəaliyyəti ilə məşğul idi. Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 1997-ci ildə ”Çiçəklər solmaya kaş” şeirlər kitabı çapdan çıxmışdı. Kazanda da, tatar dilində (”Araz aka, janda kada”) nəşr edildi. 2005-ci ildə Kazan şəhərinin 1000 illiyində Rusiya prezidentinin qərarı və Tatarıstan prezidenti M.Ş. Şəmiyevin imzası ilə medalla təltif olundu. Onu son dəfə gördüyümdə xoşbəxt adam təsəvvürü yaratdı məndə. Kaş bu ölüm olmayaydı. Payızda doğuldu, payızda da dünyasını dəyişdi. Bir şeirini də xatırlayıram: ”Heç bilmədim haçan ötdü bu payız”:

**Heç bilmədim haçan ötdü bu payız,**
**Baş açmadım harayından, hayından.**
**Baş-gözümü elə qatdı bu payız,**
**Bir də gördüm baxıram bu tayından.**
**Bir də gördüm payız elə allanıb,**
**Nəyi varsa qurban edib qızlara.**
**Ağaclarda son yarpaq da qalmayıb,**
**Son yarpaq da cehiz gedib qızlara?**

**Bu cığırlar nə yükləyib özünə,**
**Gücü çatmır həsrətimi apara.**
**Bu cığırlar qar ələyib üzünə,**
**Ha yalvarıram, çətin məni apara.**
**Bu payızın soyuq imiş hər üzü,**
**Bu payızın sonu demə qış imiş.**
**O tayında sevincimin dənizi,**
**Bu tayında quruyan göz yaşıymış.**

Payız apardı Qiyası. Qarşıdan gələn qışı görmədi.

Qiyas Həmidin ölümündən sonra onun qızı Jalənin və dostu şair İbrahim İlyaslının səyi ilə Qiyas Həmidin ”Bu köç o köçdən deyil” şeirlər kitabı çap olundu (2010). O kitaba yazdığı ön sözdə İbrahim Qiyas haqqında öz ürək sözlərini belə ifadə etmişdi: ”Sumqayıtlı qələm adamlarının, eləcə də oxucuların hörmət və ehtiramla yanaşdığı imzalardan biri də Qiyas Həmid imzasıydı. Mənsub olduğu ədəbi nəslin nümayəndələri sırasında peşəkar publisist, istedadlı şair, zəhmətkeş jurnalist kimi tanınırdı. Respublikanın ədəbi qəzet və jurnallarında müntəzəm çap olunur, müxtəlif mövzularda qələmə aldığı publisist yazıları və eləcə də şeirləri oxucular tərəfindən maraqla qarşılanırdı... Hər dəfə Vətənə dönəndə ürəyi dolu gəlirdi. Əli Kərim adına Poeziya klubuna baş çəkir, mənə yeni şeirlərini oxuyurdu. Oxuduğu şeirlərdən hiss olunurdu ki, nə qədər özünü ovutmağa çalışsa da, qəriblik onu əməllicə sıxıb. Şeirlərin hamısından qəriblik qoxusu gəlirdi”. Budur bir qəriblik şeiri:

**Məni qərib görüb payız axşamı,**
**Çiynimin üstünə qonar yarpaqlar.**
**İsitmək istərəm onları bir-bir,**
**Gözündən od alıb yanar yarpaqlar.**
**Budaqdan ayrılıb uçan hər yarpaq,**
**Yuvası dağılmış quşa bənzəyir.**
**Ovcumu tutmuşam quş yuvası tək, -**
**Yarpaqlar ovcuma qonurlar bir-bir.**
**Bu payız axşamı kövrəlib bir an,**
**Şirin xəyalıma qapıllam bir də.**
**Yarpaq da insana həyan olarmış**
**Sən demə, həyatda qəribsəyəndə.**

Qiyas Həmid necə şair idi? Olsun ki, onu bir şair kimi lazımınca tanımadılar, şeirləri haqqında yazılar yazılmadı, amma yazdığı şeirlər şəksiz onu yaşadacaq. İndi ”vətənpərvər şair” ifadəsini yeri gəldi-gəlmədi, hər şairin adı qarşısında işlətməyi çox sevirlər. Qiyas Həmid Vətənini sevirdi. Vətəndən uzaqlarda da yazdığı şeirlərdə bunu hiss etdirirdi.



**Qollarımı açıram**
**Ana yurdu qucmağa.**
**Vətən vuran ürəyim,**
**Yox qanadım uçmağa!**
**Torpağına qarışsam,**
**Deyərəm, daha nə qəm.**
**Bir gün çiçəyə dönüb**
**Mən təzədən dirilləm!**

Qiyas Həmid Vətəninin bir parçasını, doğulduğu kəndi, rayonu, evini, ocağını sevirdi. Və bu sevgi onun ürəyində əbədi yaşayırdı. Masallının təbiətindən yazırdı (”ətir saçan çiçək, güldü, Masallının təbiəti”), kənddə gördüyü yuxuların şirinliyindən söz açırdı (”Qaynar ürəyimin başından keçir, Yaman şirin olur kənd yuxuları”), kənddəki boşalmanı, seyrəlməni görəndə hissi-həyəcanı tüğyana gəlirdi (”Bu kənd yaman soyuq dəyir gözümə, Yolları ot basıb, cığırlar itib, Bu kənddə bir kişi qalmayıb daha, Hərəsi bir yana üz tutub gedib”). Qiyas Həmid atasını, anasını, övladlarını, dostlarını sevirdi. Bir hadisəni unuda bilmirdi: ”Biz hər gecə yatanda, Atamın pencəyini Anam yorğan əvəzi Atardı üstümüzə. Soyuq dəyməsin deyə Gecə yatanda bizə”. Yazırdı ki: ”Ata bir ağacdır. Övladları-Budaqları. Atam deyir: - Baban sözlə deməzdi, Ürəyindən keçəni. Hər axşam Süfrəyə qoyulardı Əllərinin qabarı”. Qiyas Həmid otları, gülləri, ağacları, təbiətin gözəlliklərini sevirdi. Onun şeirlərində bir Payız obrazı var: ”Bir payızın yağışında islanan yarpaqlar Hələ də qurumaq bilmir. Payızdan keçməyə ürəyim gəlmir... Tutub ürəyimi payız həsrəti”.

Əlli dördüncü ildə doğuldu və əlli dörd yaşında da dünyasını dəyişdi. Amma dünyaya deməyə o qədər sözü qaldı ki...

**Zaman dəyişən yerdə**
**Zülüm adi görünür.**
**Vətən darda olanda**
**Ölüm adi görünür!**
**Dünya, sənə sözüm var!**
**Oğlu şəhid analar**
**Sinə gərirlər dərdə.**
**Boynubükük görünür**
**Çöldə bənövşələr də.**
**Dünya, sənə sözüm var!**
**Xocalının naləsi**
**Ərşə qalxdı o gecə.**
**Balasını itirən**
**Ataların yanında**
**Balamı qucum necə?**
**Dünya sənə sözüm var!**

Bax, belə şair idi Qiyas Həmid. Ruhu şad olsun!